DOI: 10.36719/2020/BEK/01/172-175

**Tahirə Əbil qızı Bağırova**
AMEA-nın Fizika İnstitutu,  aparıcı elmi işçi

# UŞAQ ƏDƏBİYYATINDA QARACA ÇOBAN OBRAZI

**Xülasə**

Azərbaycan şifahi xalq ədəbiyyatı ən çox yayılmış uşaq ədəbiyyatı və nağıl tiplərimizdir. “Kitabi Dədə Qorqud” ənənələrinin davamını və mükəmməl təsirini görürük. Qəhrəmanlıq dastanları ilə qəhrəmanlıq təsvirləri arasındakı sevgi və oxşarlıq mövzuları Dədə Qorqud dastanları ilə ayrılmaz şəkildə bağlıdır.

Qara Çoban, diqqətlə düşünülmüş ideal qəhrəman növüdür. Bir şəkil olaraq, insanın bütün xüsusiyyətlərinə malikdir. Qaranlıq Çoban obrazı ədəbiyyatımızda və mənəvi düşüncə tarixində yüksək qiymətləndirilir.

***Açar sözlər:*** *şifahi xalq ədəbiyyatı, uşaq ədəbiyyatı, Qaraca çoban obrazı*

## The image of a shepherd In children's literature

**Summary**

Azerbaijani oral folk literature - our most common types of children's literature and fairy tales. We see the continuation and the perfect effect of the traditions of the Kitabi Dada Gorgud. The themes of love and the

similarities in heroic epics and the heroic descriptions are inextricably intertwined with the Dada Gorgud epics.

As an image, it has all human characteristics. The black shepherd is the ideal type of hero, carefully thought out. The image of the dark Shepherd is highly valued in our literature and in the history of spiritual thought.

***Key words:*** *folklore, children's literature, shepherd image*

Azərbaycan şifahi xalq ədəbiyyatının sonrakı inkişaf dövrlərində uşaq ədəbiyyatın ən geniş növləri olan nağıl və dastanlarımızda "Kitabi-Dədə Qorqud" ənənələrinin davamını və onun hər tərəfli mükəmməl təsirini görürük. İstər məhəbbət dastanlarında, istərsə də qəhrəmanlıq dastanlarındakı mövzu və süjet oxşarlıqları və qəhrəmanların təsviri bilavasitə Dədə Qorqud dastanları ilə üzvi şəkildə birləşir. Dastanlar arasındakı oxşar cəhətlərin ən maraqlısı sonrakı dövr dastanlarımızda işlənmiş xalq qəhrəmanlarının, çoban surətlərinin (işlənməsi) Qaraca çobanın ayrı-ayrı xüsusiyyətlərinin təsiri altında yaranmasıdır.

Azərbaycan xalq ədəbiyyatının qiymətli nümunələrindən biri olan "Novruz" dastanını "Kitabi-Dədə Qorqud" dastanları ilə müqayisə edən professor V.Vəliyev bu iki dastandakı çoban obrazları haqqında yazır:

"Nağıl və dastanlarımızda qüvvələr daxilən vəhdətdədir və əsasən bir kökə - xalqa bağlıdır. Deməli istər dastan və istərsədə nağıllarımızda işlənmiş çoban surətləri bu və ya başqa adla mübarizə aparır xalqın diləyini həyata keçirir. Bunlar xalq içərisindən çıxmış və kökləri ilə xalqdan qidalanan mübariz və yenilməz qüvvələrdir" (1.).

Bizim Dədə Qorqud dastanlarında rast gəldiyimiz ən qüvvətli rəiyyət qəhrəmanı Qaraca çobandır. Dastanın ikinci boyu olan "Qazan xanın evinin yağmalanması" boyunda bizim qarşılaşdığımız bütün dastanların qəhrəmanı Qazan və ondan da qüvvətli işlənmiş xalq qəhrəmanı Qaraca Çoban obrazıdır.

Dastanın müəllifi Qaraca Çobanı bizə ağıllı tədbirli hər şeyi qabaqcadan görə bilən bir qəhrəman kimi təqdim edir.

Düşmənlər Qazan xanın evini "yağmaladıqdan", arvad-uşağını əsir aldıqdan sonra Qazanın Dərbənddəki qoyunlarının ələ keçirmək və ona "ulu Heyer" etmək istəyirdilər. Bu qoyunları gətirmək üçün Şöklu Məlik altı yüz adamdan ibarət silahlı dəstə göndərir.

- Altı yüz kafir atlandı, qoyunun üzərinə ilqar vardı. Gecə yatarkən Qaraca Çoban qara qayğulu vaqiə gördü.Vaqiəsində qəfləti ayağa durdu. Qaban gücü, Dəmir gücü - bu iki qardaşı yanına aldı. Agılın qapısını bərkitdi. Üç yerdə təpə kimi daş yığdı. Ala qollu sapanın əlinə aldı.

Sanki xalqın təsvir etdiyi bu qəhrəman xalqın "Ehtiyat igidin yaraşığıdır" məsəlini həyata keçirir. Biz Qaraca Çobanın bu tədbirindən onun bütün gələcək işlərini görür və xalqı təmsil edən qəhrəmanın zəkasına heyran qalırıq.

Düşmənlər əvvəlcə Qaraca Çobanı yola gətirmək ona bəylik vəd etməklə qanın almaq istəyirdilər. Lakin bu sədaqətli, qorxmaz xalq qəhrəmanı düşmənə cəsarətlə kəskin cavab verir.

Hərzə-mərzə söyləmə üzrə itim kafir!
İtimlə bir yalaqda yuyundum içən azğın kafir!
Altındakı alaca atın nə öyərsən?
Ala başlı keçim və gəlməz mana
Başımdakı tuğulğanı nə öyərsən üzrə kafir!
Qızılcıq dəyənəyimcə gəlməz mana.
Qılıncını nə öyərsən mənə kafir?!
Əyri başlı çəvkanımda gəlməz mana,
(Belindəki doxsan oxun nə öyərsən mənə kafir?)
Alaqollu sapanımca gəlməz mana
Uzağımdan yaxınımdan bəri keçmə!
Yukutlərın zərbini korgil ondan ötkgil! –

deyən Qaraca Çoban arasında böyük ziddiyyət görürük. Bu sözlərin müəllifi "mənə kimi daş yığıb", "əlimdə sapan" düşmən gözləyən Qaraca Çoban birləşərək böyük bir xalq – onun düşüncəsi və vuran qolu olur. Bundan sonra Qaraca Çoban sözlə dediklərini işlə də yerinə yetirir. O "alaqollu" sapandına daş qoyub altı yüz nəfərlik düşmənə qarşı hücuma keçir. Hər atanda ikisini-üçünü yıxır. Kafirlərin qorxu düşür. Qaraca Çoban kafirin üç yüzünü sapan daşı ilə "yerə buraxır". Bu döyüşdə iki qardaşı oxa düşüb şəhid olur. Vuruşda Çobanın daşı tükənir, qoyun demir, keçi demir sapana qoyub atır. Kafirlər:

"Yarımasın, yarımasın bu Çoban biz (cümləmizi) qırar olamı"- dedilər.

Dəxi durmuyub qaçdılar!

Çoban şəhid olan qardaşlarını basdırır. Kafirlərin leşindən bir təpə yığır. Çaxmaq çaxıb od yaxır "kənənəyindən qurum oy" edib yarasına basır. Yolun"qıyısın" alıb oturur "ağlayır, sızlayır" deyir:

- Salur Qazan, Bəy Qazan! Ölümüsən, dirimisən, bu işlərdən xəbərin yoxmudur? – dedi

Qazan xan gecə yatarkən yuxu görür və ovdan geri, evinə qayıdır evini yağmalanmış görür nəhayət Qaraca Çobanın yanına gəlir. Aşağıdakı sözlərlə ailəsini çobandan xəbərləşir:

Qarulqu axşam olanda qayğılı Çoban!
Qarla yağmur yağanda çaxmaqlı çoban!
Ünüm ünlə, sözüm dinlə!
Ağbaş evim quyudan keçmiş gördünmü, de kim mana!
Qara başım qurban olsun Çoban sana!

Qaraca Çoban Qazana əhvalatı danışır. Qazanın ağlı başından gedir. "Ağzın qurusun Çoban" deyərək Çobana söylənir. Belə deyəndə Çoban Qazana deyir:

- Nə qarğırsan mənə ağam Qazan? (yoxsa koksündə yolmu iman?)

Qaraca Çoban Qazanla birlikdə onun ailəsini qurtarmağa getmək istəyir. Bu sözlərlə müraciət edir:

Yenilmə alnım qanım mən siləyim
Ölürsəm sənin uğruna mən öləyim,
Allah taala qoysa evini mən qurtarayım!

Belə Qazana qəhər gəldi..."

Qazan Çobanı özüylə aparmaq istəmir. Onda Çoban deyir ki, sən evini almağa gedirsən məndə qardaşımın qanını. Qazan Çobanla getməyi özünə ar bilir. Qorxur ki, oğuz bəyləri başına qaxınc etsinlər. Çobanı bir ağaca sarıyıb gedir və deyir ki, qarnı acmamışkən bu ağacı qopar, yoxsa səni burada qurdlar, quşlar yeyər.

- Qaraca Çoban zərb elədi, qaba ağacı yerilə, yurduyla qopardı, arxasına aldı, Qazanın arxasınca düşdü.Qazan Çobandan soruşanda ki, bu ağacı neyləyirsən? Çoban cavab veerir ki, sən kafiri basıb arıyanda bu ağacla yemək bişirərəm.

Bu sözlər Qazanın xoşuna gəldi. Atından endi Çobanın əllərini çözdü, alnından öpdü.

Qaraca Çoban Qazanla birlikdə düşmənə hücüm edir və Qazanın ailəsini xilas edirlər. Bundan sonra Qazan Qaraca Çobanı əmiraxur edir.

Qəhrəman əsil insan kimi hansı sifətlərə malikdir? Biz hər şeydən əvvəl Qaraca Çobanı xalqın sadiq oğlu kimi taniyiriq. Qaraca Çoban ona tapşırılmış qoyunları sədaqətlə qoruyur. Bu obrazdan bəhs edərkən "Kitabi-Dədə Qorqud" tədqiqatçısı Şamil Cəmşidov yazır: "O vəzifəsinə sadiqdir! Düşmən ona mal, dövlət və rütbə vəd edir qəbul etməyib düşmənə bir arıq toğlu belə vermir. Lakin onun sadiqliyi sadəcə bir qul sədaqəti deyildir. Onun öz mənliyi, heysiyyəti və şəxsiyyəti vardır.

Doğrudan da bu təkzib olunmaz bir faktdır. Qaraca çoban altı yüz nəfərlik düşmənə qarşı mübarizə üçün əvvəlcədən tədbir görərkən o heç də qazanın göstərişlərinə əməl etmirdi. İkincisi isə Qaraca Çoban əgər bir qul kimi vuruşursa bəs onun mənliyini, cəsarətini, böyük mənəviyyatını ifadə edərək düşmənlərə dediyi sözlər nəyi göstərir? Bu bir həqiqətdir ki, heç bir qul ağanın qorxusu təsiri altında düşmənə mənəvi cəhətdən təsir edə bilməz.

Heç bir ağa öz nökərini söz deməyə məcbur edə bilməz. Bu yalnız böyük bir xalqın arzusudur ki, onu təmsil edən qəhrəman bu arzunu həyata keçirir. Qazan xan öz ailəsini düşməndən xilas etməyə gedərkən Qaraca Çoban da onunla getmək istəyir. Lakin Qazan xan onu özü ilə aparmağı qüruruna sığışdırmır, qorxur ki, oğuz bəyləri bunu Qazanın başına "qaxınc" etsinlər. Biz burada dövrün elə ictimai münasibətlərini görürük ki, bu ictimai münasibətlər çox zəif olduğundan Qaraca Çoban kimi rəiyyət qəhrəmanlarının təmiz mənəviyyatına "ləkə" vura bilməmiş və Qaraca Çobanlar hələ bu xüsusiyyətdə heç bir şey tanımırlar və tanıya da bilməzlər.

Çobanın böyük mənəviyyatı, sadəliyi, insanlıq və əzəməti qarşısında bütün qəbilənin başçısı Qazan miskin bir vəziyyətdə görünür.

İkinci bir tərəfdən yuxarıda göstərdiyimiz ictimai vəziyyət yeni ictimai quruluş Qaraca Çoban mühitinə təsir etmişdir. Yeni feodal quruluşunun istilahlar olan "xan", "çoban", "rəiyyət" və s. kimi sözlər buna sübutdur. Xüsusən Qazan xanın onunla getmək istəyən Qaraca Çobanı ağaca sarılması səhnəsi bu cəhətdən maraqlıdır. Biz altı yüz nəfəri tək-tənha qarşılayan hər atanda "on iki batman" daş atan, atdığı daşı yerə düşməyən yerə düşsə toz kimi ovulan daşı düşdüyü yerdə ot bitməyən qəhrəmanı bir nəfər tərəfindən məzlumcasına ağaca sarılmış görürük. Onlarca Qazan kimilərini bir zərbədə yerə sərən pələngi "qəhrəmanın ağaca sarımaq üçün quzu kimi sakit olmağa məcbur edən nədir? İddia oluna bilər ki, Qaraca Çobanın qeyri-adi gücünü göstərmək üçün dastan müəllifi belə etmişdir.

Şamil Cəmşidov Qaraca Çobandan bəhs edərkən yazır "O, bitmiş ağacı bir təkanla kökündən qoparıb çıxarır . Bu cəhətdən onu ancaq məğlubedilməz sayılan Təpəgözə qarşı qoymaq olar. Çünki dastanda qəhrəmanlar içərisindən bu iki obraz köklü ağacı yerindən qopara bilən gücə malikdir".

Qaraca Çoban hərtərəfli işlənmiş mükəmməl bir qəhrəman tipidir. Bir obraz kimi, o bütün insani

xüsusiyyətlərə malikdir. Qaraca Çobanın bir surət kimi ədəbiyyatımızda, ümumən xalqımızın mənəvi fikir tarixində tutduğu mövqeyi çox düzgün qiymətləndirilir. Bu haqda professor Ə.Sultanlı yazmışdı:

"Qaraca Çoban" a gəlincə qeyd etmək lazımdır ki, Sovet hakimiyyətinə qədər ədəbiyyatımızda aşağı təbəqə içərisindən onun qədər qüvvətli bir surət yaradılmamışdır. Qaraca Çoban ozanın xalq üzərində apardığı çox dəqiq müşahidənin sənətkaranə bir məhsuludur".

**Ədəbiyyat:**


1. H.Araslı. Kitabi-Dədə Qorqud. Müqəddim. Səh 6.1962.
2. Kitabi-Dədə Qorqud "Qazan xanın evinin yağmalanması" 1962.səh 30.
3. Kitabi-Dədə Qorqud səh 31.
4. Kitabi-Dədə Qorqud səh 34,35.
5. Ş.Cəmşidov. Kitabi-Dədə Qorqudu vərəqlərkən Gənclik 1969.səh 42.
6. Əli Sultanlı.Məqalələr.Az.ədəb.nəşr.1971.səh 47.
7. P.Əfəndiyev N.Babayev.Şifahi xalq ədəbiyyatı. 1970.səh 205.
8. Ş.Cəmşidov. Kitabi-Dədə Qorqudu vərəqlərkən Gənclik 1969.səh 92.
9. Kitabi-Dədə Qorqud 1962 səh 113.
10. M.H.Təhmasib. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər II məqalə səh 28
11. V.Vəliyev. Azərbaycan xalq dastanları (qiyabiçi tələbə üçün) ADU nəş 1968 səh 9.
12. 1. Azərbaycan dastanları I hissə 1965 səh 176-177 2. Kitabi-Dədə Qorqud səh 96
13. Azərbaycan dastanları II hissə 1966 səh 218
14. V.Vəliyev. Azərbaycan xalq dastanları, 1968 səh 9
15. M.H.Təhmasib. "Azərbaycan xalq dastanları" kitabı səh 92-93
16. Azərbaycan dastanları 1965 səh 177
17. D.Əfəndiyev. El ədəbiyyatı və yaxud el sözləri. "Azərbaycanı öyrənmə yolu" jurnalı.Bakı 1928 №1-2 səh 23
18. Azərbaycan nağılları. Azərb.SSR.EA nəş Bakı III cild səh 3
19. Azərbaycan xalq dastanları II 1966 səh 868